

Bu gün Rusiya Federasiyasının Həştərxan şəhərində mərhum prezident Heydər Əliyevin anım günü ilə əlaqədar mərasim keçirilib.

AzNews.az xəbər verir ki, mərasimdən öncə tədbir iştirakçıları, o cümlədən Həştərxanda səfərdə olan Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı A.Fərzəliyev, Həştərxan vilayəti və şəhərinin rəsmi nümayəndələri, diaspor təmsilçiləri, iş adamları, ictimaiyyətin nümayəndələri, azərbaycanlı tələbələr və şəhər sakinləri tərəfindən Həştərxan şəhərindəki Heydər Əliyev parkında ucaldılmış Ulu Öndərin abidəsi önünə əklillər qoyulub.

Anım mərasimi Həştərxan şəhərinin Bakı küçəsində yerləşən Heydər Əliyev adına 11 nömrəli ümumtəhsil məktəbində keçirilib. Mərasimin əvvəlində tədbir iştirakçıları Heydər Əliyevin parlaq xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Giriş sözü ilə çıxış edən Bakı şəhərinin Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Heydər Əliyevin həyat və fəaliyyət yolu haqqında ətraflı məlumat verib, onun təməlini qoyduğu və həyata keçirdiyi nəhəng layihələrdən danışıb.

Mərasimin sonunda ənənəvi olaraq Heydər Əliyev Fondu adından sözügedən məktəbin fərqlənmiş 12 şagird və 5 müəlliminə təqaüd və hədiyyələr təqdim olunub.